Gəncə Dövlət Universiteti

**BAKALAVRİAT TƏHSİL SƏVİYYƏSİNİN**

**050809-Turizm Bələdçiliyi İXTİSASI ÜÇÜN**

**TƏHSİL PROQRAMI VƏ FƏNLƏR ÜZRƏ**

**TƏLİM NƏTİCƏLƏRİ**

**GƏNCƏ – 2024**

**AZƏRBAYCAN RESPUBLİKASI**

**ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ**

**BAKALAVRİAT TƏHSİL SƏVİYYƏSİNİN**

**050809- Turizm Bələdçiliyi İXTİSASI ÜÇÜN**
**TƏHSİL PROQRAMI VƏ FƏNLƏR ÜZRƏ TƏLİM NƏTİCƏLƏRİ**

**Gəncə Dövlət Universitetinin "Menecment və turizm işi " kafedrasının 30.01.2024-cü il tarixli iclasında müzakirə edilərək bəyənilmiş və qəbul edilmişdir.**

**Tərtib etdi :Əli Aydın oğlu Allahverdiyev**
**Gəncə Dövlət Universitetinin " Menecment və turizm işi " kafedrasının müdiri, dosent, iqtisad üzrə fəlsəfə doktoru**

**Giriş**

Təlim nəticələri anlayışı tələbəyə yönəlmiş ali təhsil sisteminin başlıca konseptual əsasını formalaşdırır. Təlim nəticələri təhsil prosesini tamamladıqdan sonra tələbənin nəyi bilməli, anlamalı və ya nümayiş etdirə bilməli olduğuna dair ifadələrdir.

Gözlənilən təlim nəticələri hər kurs və proqram üzrə tədris başlamazdan əvvəl yazılmalı və tədris prosesi zamanı professor- müəllim heyətinin üzvü və tələbə arasında dialoq vasitəsilə inkişaf etdirilməlidir.

Təlim nəticələrindən istifadə kvalifikasiyaların qiymətləndirilməsində iştirak edən müəssisələrə, işəgötürənlərə və digərlərinə kvalifikasiyaları daha aydın anlamağa yardım etmək üçün kvalifikasiyaların təsvirində istifadə edilən ortaq dildir.

Proqram və fənlərin təsvirində təlim nəticələrindən istifadə proqramın, yaxud modulun sonunda tələbələrdən nə gözlənildiyini onlara daha aydın şəkildə çatdırır. Təlim nəticələrinin üstünlüklərindən biri ondan ibarətdir ki, tələbələrdən nəyə nail olmaq tələb olunduğu və nailiyyətlərini necə nümayiş etdirmək lazım olduğu aydın surətdə göstərilir.

Metodik tövsiyədə **050809-"Turizm Bələdçiliyi"** ixtisası üçün təhsil proqramı üzrə təlim nəticələri, fənlər üzrə təlim nəticələri, eləcə də tədris olunan fənlərin və təhsil proqramının təlim nəticələrinin matrisi verilmişdir.

Təlim nəticələrinin kvalifikasiyaların qiymətləndirilməsində iştirak edən maraqlı tərəflərə daha aydın və anlaşıqlı olması üçün mütəmadi olaraq ayrı-ayrı fənlərin təlim nəticələri kafedrada yaradılmış komissiya tərəfindən ekspertiza edilir.

## MƏZUNUN KOMPETENSİYALARI

**Təhsil proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:**

- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;
- İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;
- Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətlərinə;
- Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağırışları müəyyən etmə bacarıqlarına;
- İş yerində informasiya texnologiyalarından istifadə etmək qabiliyyətinə;
- Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;
- Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə;
- Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;
- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;
- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;
- Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuru və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;
- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına;

- Yazılı və şifahi şəkildə effektiv ünsiyyət və təqdimat bacarığına;
- Qrupu idarəetmə bacarığına;.
- Sosial və peşəkar etik dəyərləri tənqidi baxımdan qiymətləndirmək bacarığına;
- Həyat boyu öyrənməyə müsbət münasibət bəsləmək, rəhbərlik etdiyi insanların peşəkar bilik və bacarıqlarını artırmaq, özünü şəxsən və peşəkar şəkildə inkişaf etdirmək bacarığına;
- Mürəkkəb sistemləri təhlil etmək, əlaqələri aşkarlayıb dərk etmək, müxtəlif sahələrdə və fərqli səviyyələrdə sistemlər arasında əlaqə prinsiplərini dərk etmək, qeyri müəyyən şəraitdə fəaliyyət göstərmək(sistemli düşüncə kompetensiyası);
- Gələcəyin (mümkün,ehtimal edilən,arzu olunan) fərqli variantlarını dərk etmək və qiymətləndirmək qabiliyyəti, gələcək haqqında aydın fikir formalaşdırmaq, fəaliyyətin mümkün nəticələrini qiymətləndirmək, risk və mümkün dəyişiklikləri nəzərə almaq(proqnostik kompetensiya);
- Yerli və qlobal səviyyələrdə dayanıqlığın təmini və yüksəldilməsinə yönəlmiş novator qərarların qərarların kollektiv işlənməsi və gerçəkləşdirilməsi bacanğı(strateji baxış kompetensiyası);
- Başqalarından öyrənmək, digərlərinin tələbatlarını, fikirlərini və hərəkətlərini anlamaq, qrupda yaranan konfliktləri həll etmək, problemləri kollektivin səyi ilə həll etməkfkollektiv iş kompetensiyası);
- Qəbul olunmuş norma, yanaşma və fikirləri təhlil etmək, öz baxışlarını və fəaliyyətini kritik qiymətləndirmək, dayanıqlı inkişaf məsələləri ilə bağlı diskusiyalarda öz mövqeyini müdafiə etmək(kritik düşüncə kompetensiyası);
- Cəmiyyətdə öz rolunu kritik qiymətləndirmək(özünüdərketmə kompetensiyası);
- Mürəkkəb problemlərin həlli məqsədilə problemə yönəlik fərqli yanaşmalardan istifadə bacarığı, sadalanan kompetensiyalar əsasında kompleks və ədalətli qərarların qəbulu(problemin kompleks həlli kompetensiyası).

**Təhsil proqramının sonunda məzunlar aşağıdakı peşə kompetensiyalarına yiyələnməlidir:**

- Bələdçilik fəaliyyəti çərçivəsində turizmin əsas anlayışlarını, ideyalarını və inkişaf meyllərini təhlil etmək bacarığına;
- Müştəri məmnuniyyətini nəzərə alaraq bələdçi peşəsi ilə bağlı xidmət tələblərini yerinə yetirmək bacarığına;
- Turizm biznesini səmərəli idarə etmək bacarığına;
- Turizm sahəsi və bələdçiliklə əlaqəli hüquqi tənzimləmələri və peşə standartlarını tətbiq etmək bacarığına;
- Turizm bələdçiliyi fəaliyyətini müvafiq beynəlxalq standartlara və hüquqi normalara uyğun qaydada həyata keçirmək bacarığına;
- Turizm resurslarından istifadə etməklə yeni turizm marşrutlarını və ekskursiya proqramlarını hazırlamaq bacarığına;
- Sosial elmlər sahəsində ilkin elmi tədqiqat bacarıqlarına;
- Turizm sənayesinin strukturu, fəaliyyəti və inkişafının əhəmiyyəti haqqında bilikləri tətbiq etmək bacarığına;
- Bələdçi fəaliyyəti üçün zəruri olan məlumatları toplamaq, təhlil etmək və şərh etmək

bacarığına;

- Turizmlə əlaqəli problemləri müəyyən etmək, onları araşdırmaq, müzakirələr aparmaq və analitik yanaşma tətbiq edərək problemlərin həll yollarını göstərmək səriştəsinə;
- Tələb olunan xarici dilləri ən yüksək səviyyədə istifadə etmək səriştəsinə;
- Müştəri məmnuniyyətini nəzərə alaraq bələdçi peşəsi İlə bağlı xidmət tələblərini yerinə yetirmək səriştəsinə;
- Turizm sektorunun tələblərinə uyğun olaraq informasiya-kommunikasiya texnologiyalarından və proqramlarından(Excel, Word,Power Point, Photoshop, SPSS, Stata, Python və s.) istifadə edə bilmək bacarığına;
- Vaxtın effektiv idarə edilməsini, stres menecmentini, kreativ, tənqidi və analitik düşüncə formalarını bilmək, problemi həll etmə və qərarvermə texnikalarına, natiqlik bacarıqlarına sahib olmaq, eləcə də komanda işini bilmək və liderlik prinsiplərinə yiyələnmək;
- Peşə fəaliyyətində etik və sosial dəyərlərə uyğun hərəkət etmək qabiliyyətinə;
- Beynəlxalq mühitdə müxtəlif mədəniyyətlərdən olan insanlarla ünsiyyət qurmaq səriştəsinə;
- Qrup dinamikasını başa düşmək və bələdçilik fəaliyyətinin təşkilində nəzərə almaq bacarığına;
- Turizm sahəsində sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün müasir idarəetmə bacarığına;
- Turizm məhsulunun hazırlanması və marketinqinin həyata keçirilməsi səriştəsinə;
- Turizm menecmenti sahəsində qazanılmış bilik və bacarıqları turizmin müxtəlif fəaliyyət sahələrində tətbiq etmək səriştəsinə;
- Mühasibatlıq üzrə biliklərə malik olmaq və maliyyə hesabatlarını təhlil etmək bacarığına;
- Bir turu planlaşdırmaq, hazırlamaq və idarə etmək bacarığına;
- İlk tibbi yardım bacarığına;
- Müxtəlif mədəniyyətlər haqqında məlumatlı olmaq və onları izah etmək bacarığına(PK-24);
- Beynəlxalq turizm bazarlarında mövcud və potensial meylləri anlamaq, müqayisə etmək və şərh etmək bacarığına;
- Turizm menecmenti sahəsində qazanılmış bilik və bacarıqları turizmin müxtəlif fəaliyyət sahələrində tətbiq etmək səriştəsinə;
- Turizm sahəsində peşəkar ünsiyyət qurmaq bacarığına;
- Turizm bazarında yeni trendləri təhlil etmək bacarığına;
- Turizm sahəsində layihələri idarə etmək bacarığına;
- Azərbaycanın mədəni irsini turizm baxımından dəyərləndirmək bacarığına.

**050809-“Turizm Bələdçiliyi” İXTİSASI TƏHSİL PROQRAMI VƏ FƏNLƏR ÜZRƏ TƏLİM NƏTİCƏLƏRİ**

**TƏHSİL PROQRAMININ TƏLİM NƏTİCƏLƏRİ (PTN)** PTN 1: (milli dövlətçilik) - Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli bilikləri, dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətlərini, beynəlxalq arenada Azərbaycan dövlətinin maraqlarını qorumaq qabiliyyətinə malik olduğunu nümayiş etdirir.

**PTN 2 :**(Ünsiyyət bacarıqları) - Azərbaycan dilində və ən azı bir xarici dildə sərbəst işgüzar və akademik ünsiyyət yaradır, hər iki dildə yüksək səviyyədə oxuma, dinləmə, danışıq və yazışma səriştələri formalaşdırır.

**PTN 3:** (bələdçilik fəaliyyəti) - Bələdçilik fəaliyyətinin təşkili sahəsində nəzəri biliklərə və praktiki bacarıqlara yiyələnir; Azərbaycanın təbii və mədəni irs ehtiyatlarını bələdçilik fəaliyyəti mövqeyindən qiymətləndirir; bələdçi fəaliyyəti üçün zəruri olan məlumatları toplayır, təhlil edir və şərh edir; peşə fəaliyyətini müvafiq beynəlxalq standartlara (o cümlədən, dayanıqlı inkişaf prinsiplərinə) və hüquqi normalara uyğun qaydada həyata keçirir; turistlər üçün müxtəlif məzmunlu tədbirləri hazırlayır; bələdçi fəaliyyətinin təşkili üçün tələb olunan fiziki hazırlıq səviyyəsinə malik olur və müvafiq avadanlıqlardan istifadə etməyi bacarır.

**PTN 4**: (turizm məhsulunun hazırlanması) - Turizm bazarında yeni trendləri təhlil edir və fərqli turist qruplarının xüsusiyyətlərini başa düşür; turizm resurslarından istifadə etməklə müəyyən edilmiş turist qrupu üçün tur paketi və proqramı təşkil edir; turist qrupuna göstəriləcək xidmətləri müəyyən edir, müəyyən edilmiş xidmətlər üçün marketinq strategiyası hazırlayır və tətbiq edir; müvafiq ölkələrə, ərazilərə, şəhərlərə, tarixi yerlərə, abidələrə və turizm məkanlarına səfər və ekskursiyalar təşkil edir, o cümlədən nəqliyyat xidməti və gecələmək üçün yerlər təşkil edir; marşrut müəyyən edir və onun üzərində müddət, plan, dayanacaqlar, yemək və potensial əlaqədar şəxsləri təyin edir.

**PTN 5:** (maddi mədəni irs) - Azərbaycanın maddi mədəni irsini turizm ehtiyacları baxımından dəyərləndirir; ölkəmizdə tarixən formalaşmış şəhərsalma və memarlıq ənənələrini, onlara aid nümunələri və onların xüsusiyyətlərini turistlərə izah edir; Azərbaycanda arxeoloji qazıntılar nəticəsində aşkara çıxmış turizm əhəmiyyətli qədim yaşayış yerlərini və tapıntıları turist auditoriyasına anlaşıqlı şəkildə təqdim etməyi bacarır. Azərbaycanda fəaliyyət göstərən muzeylərin fəaliyyətini izləməyi, muzeylərə turlar təşkil etməyi və bu muzeylərdə saxlanılan əsas eksponatlar barəsində turistlərə məlumat verməyi bacarır.

**PTN 6:** (qeyri-maddi mədəni irs - İncəsənət və ədəbiyyat) - Azərbaycanda yaşayan müxtəlif etnik, dini və digər sosial qrupların qeyri-maddi mədəni İrsini turizm ehtiyacları baxımından dəyərləndirir; Azərbaycan xalqının milli mədəni kimliyinin formalaşmasına təsir etmiş mühüm ədəbiyyat nümunələrini şərh edir; beynəlxalq və yerli təsviri incəsənətin əsas üslub xüsusiyyətlərini ayırd edir, dekorativ tətbiqi sənətin növlərini, kompozisiya xüsusiyyətlərini və elementlərini izah edir; milli bədii ifaçılıq sənətinin (musiqi, rəqs, teatr və s.) təşəkkül tarixi və janrlarını şərh edir; milli mədəni şüurun formalaşmasına töhfə vermiş görkəmli ədəbiyyat və incəsənət nümayəndələrinin yaradıcılığını izah edir.

**PTN 7:** (təbii irs) - Azərbaycanın fiziki coğrafiyası haqqında biliklərə bələd olun biomüxtəliflik, mühafizə olunan təbiət əraziləri (milli parklar, qoruqlar və s.) və təbiət abidələri, habelə turizm potensialı olan məkanlar, ekoturizm marşrutları haqqında məlumat toplayır, təhlil edir və turistlərin səfərlərini təşkil edir; təbii irsin mühafizəsi ilə bağlı mövcud qanunvericilik normalarına uyğun fəaliyyətini təşkil edir.

**PTN 8:** (sahibkarlıq fəaliyyəti) - Sahibkarlıq fəaliyyətinin təşkil edilməsi ilə bağlı idarəçilik səriştələrinə yiyələnir, o cümlədən peşə fəaliyyəti ilə bağh mühasibathq və maliyyə hesabatlılığını təmin edir; layihələrin idarə edilməsi sahəsində müvafiq bacarıqlara yiyələnir; turizmdə sahibkarlıq fəaliyyətini etik prinsiplərə və qanunvericiliyin tələblərinə uyğun formada təşkil edə bilir.

**PTN 9:** (şəxsi və peşəkar inkişaf) - Peşə fəaliyyətində təşəbbüskarlıq, məsuliyyət, liderlik və komandada işləmək bacarıqlarını nümayiş etdirir, turizm fəaliyyətində rastlaşa biləcəyi mürəkkəb vəziyyətlərdə məsuliyyəti öz üzərinə götürərək problemi həll edir, bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığını nümayiş etdirir, danışıqları aparmaq və satış bacarıqlarına yiyələnir; beynəlxalq mühitdə müxtəlif mədəniyyətlərdən olan insanlarla konstruktiv iş münasibətləri saxlayır.

**PTN 10:** (İT bacarıqları) - Peşə fəaliyyəti ilə əlaqədar məsələlərin həlli üçün müvafiq informasiya texnologiyaları, o cümlədən proqram təminatlarından istifadə edir.

## FƏNLƏR ÜZRƏ TƏLİM NƏTİCƏLƏRİ (FTN)

### Azərbaycan tarixi

1. Azərbaycanın dövlətçilik ənənələrinə sədaqət hissi formalaşdırır, bunun üçün dövlətçilik ənənələrinin keçmişi və bu günü haqqında zəruri biliyə malik olduğunu nümayiş etdirir, faktlan ümumiləşdirir.
2. Əldə olunan biliklərdən cəmiyyətin müasir vəziyyətinin qiymətləndirilməsində istifadə etmək vərdişlərinə yiyələnir.
3. Azərbaycanın dövlətçilik ənənələrinin tarixi haqqında, onun yaranması, formalaşması və inkişafı dinamikasını dövrün xüsusiyyətləri baxımından izah edir, onlar arasında səbəb və nəticə əlaqələrini təhlil edir və ona münasibət bildirir.
4. Müasir Azərbaycan dövlətçiliyinin formalaşmasına təsir edən siyasi, ideoloji, iqtisadi və mədəni amillərin rolunu təhlil və tədqiq edir, fəal vətəndaşlıq mövqeyi nümayiş etdirir.
5. Müasir Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və inkişafında tarixi şəxsiyyətlərin rolunu dəyərləndirir.
6. Müasir dünyada Azərbaycan dövlətçiliyinin yeri və rolunu sistemli təhlil edir, fərziyyə və mülahizələr irəli sürür, təkliflər verir, debatlarda, dikussiyalarda, müzakirələrdə ictimai rəy formalaşdıran məsələlər ətrfmda təkliflərlə çıxış edir.

### Azərbaycan dilində işgüzar və akademik kommunikasiya

1. Təlim prosesində akademik dildə təqdimat etməyi bacarır.
2. Natiqlik bacarığını mənimsəyir və tətbiq edir.
3. Akademik və işgüzar yazı bacanqlannı mənimsəyir və tətbiq edir
4. Təlim prosesində qazandıqlan bilikləri tətbiq etməyi bacanr
5. Məqsədəuyğun seçdiyi metod və vasitələrin əhəmiyyətini əsaslandırmaq və

təcrübədə tətbiq etməyi bacanr.
6. Təlim nailiyyətlərini qiymətləndirmək üçün müvafiq meyarian seçir və tətbiq edir.

**Xarici dildə işgüzar və akademik kommunikasiya**

1. Ən çox əlaqəli olan sahələrə (şəxsi və ailə məlumatları, alış-veriş, yerli coğrafiya, məşğulluq və s.) aid məlumatları bilir və sadə cümlələrlə ifadə edir.
2. Gündəlik həyatda sadə cümlələriərdən istifadə etməklə ünsiyyət qurur.
3. Müxtəlif işgüzar vəziyyətlərdə ünsiyyət qurur.
4. Gündəlik və peşə həyatlarında qarşılaşa biləcəkləri fərqli kontekstlərdə şifahi şəkildə ünsiyyət qurur.
5. İşgüzar və akademik yazının xüsusiyyətlərini bilir, fərqli kontekstlərdə mətnlər hazırlayır.
6. Akademik və işgüzar nitqin məzmununu və quruluşunu bilir, ünsiyyət əlaqələrində istifadə edir.

**Turizmə giriş**

1. Turizm sahəsində əsas anlayışların və terminlərin mənasını başa düşür.
2. Turizm növlərini və onların xüsusiyyətlərini təsvir edir.
3. Turizmin formalannı təsvir edir.
4. Turizm dəyər zəncirində iştirak edən turizm və asudə vaxt sənayesi haqqında məlumatlı müzakirə aparır.
5. Turizmlə əlaqəli sahələrin funksiyalarını izah edir.
6. Turizm sahəsində mövcud olan etibarlı məlumat mənbələrini müəyyən edir və onlardan istifadə edir.

**Bələdçiliyin əsaslan**

f. Turizm bələdçiliyi fəaliyyətinin mahiyyətini başa düşür.
2. Bələdçiliyin əsas xüsusiyyətləri və iş prinsipləri haqqında təsəvvürə sahib olur.
3. Bələdçilik fəaliyyətinin təşkili üçün nəzəri biliklərə yiyələnir.
4. Bələdçilik fəaliyyətinin təşkili sahəsində zəruri praktiki bacarıqlar qazanır.
5. Bələdçilik texnikasından xəbərdardır.
6. “Bələdçi çantası" nın mahiyyətini izah edə bilir.

**Azərbaycan coğrafiyası**

1. Azərbaycanın coğrafi mövqeyini qiymətləndirir, Azərbaycanın ərazisi, sərhədləri, geoloji quruluşu haqqında müfəssəl bilikləri təqdim edir.
2. Qonşu ölkələr, eləcə də dünya ölkələri ilə siyasi və iqtisadi münasibətləri təhlil edir.
3. Azərbaycanın təbii şəraiti və ehtiyatlannı qiymətləndirir.
4. Xəzər dənizi və onun problemləri, respublikanın şəhər və rayonları, həmçinin ölkə əhalisinin demoqrafik vəziyyəti, əmək bazan və məşğulluğu, məskunlaşma səviyyəsi barədə müzakirə aparır.
5. İqtisadiyyatın müxtəlif sahələrinin xüsusiyyətlərini izah edir, kənd təsərrüfatı və aqrar sənaye kompleksləri haqqında məlumatları şərh edir.
6. Azərbaycanda ekoloji problemləri təhlil etməyi bacanr, onlann meydana gəlmə səbəblərini müəyyən edir və həlli yollarını təklif edir.

**Dayanıqlı turizm**

1. Turizm və qonaqpərvərlik sənayesində dayanıqlı inkişaf konsepsiyasının mahiyyətini izah edir.
2. Dayanıqlı inkişafın əsas elementləri olan iqtisadi rentabellik, icmanın rifahı, müştəri məmnuniyyəti, məşğulluğun keyfiyyəti, sosial bərabərlik, yerli səviyyədə nəzarət, mədəni zənginlik, bioloji müxtəliflik, resurs səmərəliliyi, ekoloji təmizlik və digər analoji prinsiplərin mahiyyətini turizm siyasəti və idarəetməsi çərçivəsində izah edir.
3. Turizmin müxtəlif yan təsirlərini (ing. “spillover effects") müəyyən edə bilir.
4. Turizmin ətraf mühitə təsirinin səbəblərini və nəticələrini izah edir.

5. Ətraf mühitə mənfi təsirlərin aradan qaldırılması yollannı təklif edir.
6. Fərqli inkişaf mərhələlərində olan ölkələrdə spesifik turizm məhsullarının və destinasiyalannın dayanıqlı inkişafı üçün tələb olunan alətlər və siyasətlərə nümunələr göstərir.

**Turizm hüququ**

1. Turizm sənayesi subyektlərinin hüquqi vəziyyəti barədə əsas məsələləri başa düşür.
2. Turizm hüququ sahəsində əsas milli və beynəlxalq hüquq normalannı izah edir və onların müqayisəli hüquqi təhlilini aparır.
3. Turizm hüququnun digər hüquq sahələri ilə qarşılıqlı əlaqələlərini izah edir və digər hüquq sahələrində turizm sənayesinin fəaliyyətini təhlil edir.
4. Turizm sahəsi üzrə beynəlxalq və ya digər nümunəvi ölkələrin hüquq sistemlərini təhlil edir.
5. Turizm sənayesinin inkişafı və dayanıqlılığının təmin edilməsi üzrə yaranan müxtəlif növ hüquqi çətinliklərin təhlilini apara bilir.
6. Təhlilin nəticələrini strateji planlaşdırma kontekstində tətbiq edir.

**Turizm məhsulunun hazırlanması**

1. Turizm məhsulu haqqında əsas anlayışlan başa düşür.
2. Turizm məhsullarının təbiətini və quruluşunu təsvir edir.
3. Turizm məhsulunun müxtəlif xüsusiyyətlərini fərqləndirir, onun yaradılması və inkişafı üçün istifadə olunan metod və strategiyaları tətbiq edir.
4. Turizm məhsulunun inkişafında ümumi keyfiyyət idarəetmə məsələlərini başa düşür və nəzərə alır.
5. Turizm məhsulunun həyat dövrünü başa düşür, məhsulun hazırlanmasının müxtəlif mərhələlərində yaranan problemləri müəyyən edir, eləcə də həll yollarını təklif edir.
6. Turizm məhsulunun yaradılmasında beynəlxalq təcrübəni araşdırır, yerli əhəmiyyətli innovativ təkliflər irəli sürür.

**Turizm marşrutları və Ekskursiya işinin təşkili**

1. Turizm marşrutları haqqında anlayışa malikdir.
2. “Böyük İpək yolu", “Azərbaycanda alman izləri", “Şərab yolu", “Azərbaycanda arxeoloji turizm" və digər
marşrutların keçdiyi əraziler haqqında biliklərə malikdir.
3. Qeyd edilən marşrutların xüsusiyyətlərini, marşrutda yerləşən abidələri və görməli yerləri izah edir.
4. Tarixi-mədəni abidələrdən istifadə etməklə yeni marşrutlar hazırlamağı, həmin marşrutlara ekskursantlan cəlb etməyi, ekskursiyaların hazırlanması və keçirilməsini bacarır.
5. Müxtəlif coğrafi və mədəni mühitlərdə ekskursiyaların planlaşdırılması, hazırlanması və həyata keçirilməsinin əsas xüsusiyyətləri və mərhələlərini izah edir.
6. Ekskursiyaların təşkili sahəsində öyrənmiş bilikləri tətbiq edir.

**Turist davranışı və psoxologiyası**

1. Tələbə turist davranışı və psixologiyası ilə bağlı əsas anlayışlarla tanış olur.
2. Psixologiya elminə aid müvafiq anlayışları turizm sahəsinə tətbiq edərək turistlərin səyahət motivasiyası, münasibəti və təsəvvürlərinin əsas xüsusiyyətləri izah edir.
3. Turistlərin informasiya əldə etməklə bağlı davranışını, səyahət qərannın verilməsi prosesinin müxtəlif mərhələlərini (xəyal etmə, planlama, sifariş vermə, səyahət etmə, səyahət sonrası xatırlama və tövsiyə vermə) və ona təsir edən amilləri, o cümlədən destinasiya ilə bağlı turistlər arasında olan təsəvvürləri təsvir və şərh edir.
4. Müxtəlif turist növlərini (macəra sevən, ailə ilə səyahət edən, yaşlı-araşdırmaçı, subay, cütlüklər, tələbə, işgüzar, təcrübəli, orta-yaşlı, təqaüdçü turistlər, sağlamlıq üçün

səyahət edənlər, investorlar, yeni ailə quranlar, SSRI-də doğulanlar, dövlət qulluqçuları, dindar ailə turistləri, eko-turistlər, tarix və mədəniyyət sevənlər turistlər və s.), turizmdə sosial rolları və turistlərin stereotiplərini müzakirə edir.
5. Destinasiya təcrübəsinin əsas xüsusiyyətlərini, o cümlədən emosiyaların əhəmiyyətini izah edir.
6. Turizm destinasiyasının imic təhlilini aparır.

**Ədəbiyyat və milli mədəni kimlik**

1. Azərbaycan folkloru və ədəbiyyatının əsas nümunələrini tanıyır.
2. Azərbaycan xalqının milli mədəni kimliyinin formalaşmasına təsir etmiş milli və beynəlxalq ədəbiyyatın görkəmli nümayəndələrinin həyat və yaradıcılığı haqqında müzakirə aparır.
3. Milli kimliyin formalaşmasına töhfə vermiş əsas ədəbi əsərlərin tənqidi təhlilini verə bilir.
4. Milli ədəbiyyatın əsas tarixi inkişaf meyllərinin izah edir.
5. Azərbaycan ədəbiyyatının milli kimliyin formalaşmasında rolu barəsində şərh verir.
6. Məşhur yazıçı və şairlərin həyatı ilə bağlı mədəni abidələri (ev muzeyləri, heykəllər və s.) tanıyır və onların tarixi barəsində təqdimat edir.

**Etnoqrafiya**

1. Etnoqrafiya sahəsində əsas anlayışların mənalarını başa düşür.
2. Etnoqrafiya sahəsində nəzəri yanaşmalara bələddir.
3. Mədəni müxtəlifliyi və mədəniyyətlərin inkişaf xüsusiyyətlərini elmi yanaşmalardan istifadə edərək izah edir.
4. Müxtəlif sosial qruplann mədəni özünəməxsusluğunu və davranış xüsusiyyətlərini təsvir edir.
5. Yerli mədəniyyətlər və qloballaşma arasında qarşılıqlı əlaqələri və ziddiyətləri şərh edir.
6. Azərbaycanda mövcud olan zəngin qeyri-maddi mədəni irsin əhəmiyyətini, müxtəlifliyini və tarixini şərh edir.

**Təsviri incəsənət**

1. Təsviri sənət sahələrinin təşəkkül tarixini təsvir edir.
2. Təsviri incəsənətin əsas anlayışlarının mənalannı izah edir.
3. Təsviri sənət sahələrinin və növlərinin təsnifatı, onlann beynəlxalq və regional kontekstdə müqayisəli təhlilini aparır.
4. Azərbaycan təsviri sənətinin əsas xüsusiyyətlərini və trendlərini tarixi və coğrafi kontekstdə müqayisəli izah edir.
5. Azərbaycan təsviri sənət nümunələrindən misallar gətirə bilir.
6. Beynəlxalq və milli təsviri incəsənətin əsas müəllifləri və nümunələri haqqında məlumatlı müzakirə apara bilir.

**Azərbaycanın şəhərsalma tarixi**

1. Şəhərsalmanın tarixi və beynəlxalq ənənələri haqqında ümumi təsəvvürə malikdir.
2. Azərbaycanın tarixi əhəmiyyət kəsb edən əsas yaşayış məntəqələrinin formalaşma tarixini təsvir edir.
3. ölkəmizdə tarixi əhəmiyyət kəsb edən əsas yaşayış məntəqələrinin planlaşdırılması məntiqini şərh edir.
4. Şəhər planlaşdırılmasının müxtəlif aspektlərini kompleks şəkildə və konkret nümunələr əsasında izah edir.
5. Azərbaycanın şəhərsalma ənənələrinə təsir etmiş beynəlxalq mədəni təsirləri şərh edir.
6. “İçəri şəhərin tarixini və memarlıq üslubunu izah edə bilir.

**Memarlığa giriş**

1. Beynəlxalq və milli memarlıq üslublarını müqayisəli şəkildə təsvir edir.
2. Beynəlxalq və milli memarlıq üslublarının əsas xüsusiyyətlərini izah edir.
3. Azərbaycanın memarlıq ənənəsini və onun mədəni özünəməxsusluğunu tarixi kontekstdə izah edə bilir.
4. ölkəmizin memarlıq ənənəsini coğrafi kontesktdə izah edir.
5. Beynəlxalq və milli memarlıq sənətinin əsas nümayəndələri/nümunələri haqqında məlumatlı müzakirə aparır.
6. Azərbaycanın müxtəlif regionlarında təşəkkül tapmış fərqli memarlıq ənənələrini müqayisəli təhlil edir.

**Bədii ifaçılıq sənətinin tarixi**

1. Azərbaycanın bədii ifaçılıq sənətinin tarixinə bələddir.
2. Azərbaycanın bədii ifaçılıq sənətinin müxtəlif janrlarının inkişaf trendlərini müzakirə edir.
3. Azərbaycanın musiqi sənətinin görkəmli nümayəndələrini və yaradıcılıq nümunələrini təqdim edir.
4. ölkəmizin məşhur rəqsləri və rəqs qrupları haqqında nümunələr təqdim edir.
5. Azərbaycanın teatr sənətindən nümunələr göstərə bilir.
6. Azərbaycanın bədii ifaçılıq sənətini qlobal və regional kontekstdə müqayisəli şərh edir.

**Dünya və Azərbaycan muzeyləri**

1. Muzeyşünaslıq sənətinin əsas funksiyalarını və məqsədlərini izah edir.
2. Dünyanın məşhur muzeyləri haqqında izah verə bilir.
3. Azərbaycanın müxtəlif məzmunlu muzeylərini təsvir edir.
4. ölkə muzeylərində saxlanılan önəmli eksponatlar barəsində məlumatlıdır.
5. Azərbaycana məxsus, lakin xarici muzeylərdə saxlanılan eksponatlar haqqında məlumatlıdır.
6. Muzeylərin turizm fəaliyyətinin təşkili prosesində rolunu qiymətləndirir.

**Dekorativ tətbiqi sənət**

1. Dünyada və Azərbaycanda dekorativ tətbiqi sənətin inkişaf tarixinə bələddir.
2. Dekorativ tətbiqi sənət növlərini təsnifləşdirməyi bacarır.
3. Dekorativ tətbiqi sənət növlərinin kompozisiya xüsusiyyətlərini fərqləndirir.
4. Dünyada və Azərbaycanda dekorativ tətbiqi sənətdə istifadə olunan omamentlər və naxışları ayird edə və izah edir.
5. Azərbaycanın fərqli regionlarında yayılmış müxtəlif dekorativ tətbiqi sənət ənənələrini şərh edir.
6. Xalq yaradıcılığının əsas bədii obrazlarının mənalarını başa düşür.

**Menecmentin əsasları**

1. Menecmentin inkişaf tarixinin əsas mərhələlərini, onun başlıca nəzəriyyələrini və anlayışarını təsvir edir.
2. Biznes idarəetməsi sahəsində əsas anlayışlan və menecment funksiyalarını izah edir.
3. Biznes mühitini təhlil etməyi və təşkilatın müxtəlif maraqlı tərəflərinin ehtiyaclannı nəzərə almağın yollarını başa düşür.
4. Şirkətin missiya və gələcəyə baxışı ilə bağlı nümunələr göstərir.
5. Müxtəlif idarəetmə səviyyələrində menecerin malik olduğu bacarıqlara yiyələnir.
6. Menecerin icra etdiyi tapşırıqları və təşkilatda oynadığı rolu izah edir.

**Marketinqin əsasları**

1. Təşkilatın ayrılmaz elementi kimi marketinqin funksiyasını təsvir edir.
2. Marketinqin biznesdə rolunu və onun təsirlərini izah edir.
3. Strateji və əməliyyat marketinqi arasında fərqi ayird edir, əməliyyat marketinqinin, məhsul siyasəti və xidmət marketinqinin əsas cəhətlərini izah edir.

4. Marketinqin müştəri məmnuniyyətini və dəyəri artırmaq üçün əhəmiyyətini müzakirə edir.
5. Marketinqin əsas anlayışları və alətlərini, habelə istehlak məhsulları/xidmətləri və istehsal məhsulları/xidmətləri arasındakı fərqləri izah edir.
6. Seqmentləşdirmə, hədəfləmə və mövqeləşdirmə anlayışlarım izah edir, müxtəlif kommunikasiya kanalları və onların xüsusiyyətlərini fərqləndirir

**Mühasibat uçotu**

1. Mühasibat uçotu prinsiplərini tətbiq edir və mühasibat sisteminin müxtəlif bölmələrinin qarşılıqlı əlaqəsini izah edir.
2. Mühasibat uçotu qaydalannın təsirini izah edir və şirkət hesablarının əsas bazasını hazırlayır.
3. Maliyyə hesabatlarının elementlərini, ikili yazılış sistemini və yoxlama balansını bilir, mühasibat düzəlişləri daxil olmaqla sadə illik maliyyə hesabatlarını hazırlayır.
4. özəl və ictimai məhdud şirkətlər arasındakı fərqi izah edir, istehsalçılar və xidmət təminatçıları üçün şirkət hesablarının əsas bazasını hazırlayır.
5. Yerləşdirmə sənayesi üçün Vahid Hesablama Sistemindən İstifadə edərək turizm təşkilatlarının yekun hesabatlarını tətbiq edir.
6. Əsas nisbətlərdən və mühasibat uçotunun digər metodlarından istifadə edib maliyyə nəticələrini təhlil edir, məsrəf __ anlayışını müxtəlif qərar qəbuletmə situasiyalarına tətbiq edir.

**Arxeologiya, mədəniyyət və turizm**

1. Arxeologiya sahəsinin əsas anlayışları və nəzəri yanaşmalarına bələddir.
2. “Arxeoloji turizm" anlayışını izah edə bilir.
3. Arxeoloji tədqiqatların aparılması metodlan barəsində ilkin təsəvvürə malikdir.
4. Ayrı-ayrı arxeoloji abidələrin timsalında istifadə olunan tədqiqat üsulları və texnikalarını şərh edir.
5. ölkəmizdəki arxeoloji abidələr haqqında məlumatlıdır.
6. Azərbaycanın əsas arxeoloji abidələrinin tarixi və əhəmiyyətini izah edir.

**Turizmdə vasitəçilər**

1. Tələbə tur operatorları, səyahət agentlikləri və müştərək müəssisələrin strukturunu, onların yaradılması qaydalarını bilir.
2. Turizm sənayesinə daxil olan iştirakçıları və onları rollannı təsvir edir.
3. Tur operatorlar üçün xüsusi tələbləri - biznes tələblərini, kvalifikasiyaları və məhsul barəsində biliyi təqdim edir.
4. Tur paketləri hazırlamağı və maliyyə planlaşdınlmasını həyata keçirir.
5. Tur paketlərin qiymətləndirilməsi, qiymət siyasəti, tarifər və marketinq alətlərini tətbiq edir.
6. Turpaketlərin turistlərə satışı kanallarını izah edir.

**Sosial tədqiqata giriş**

1. Elmin fəlsəfəsinin əsas anlayışlarını və İdeyalarını başa düşür.
2. Elmi tədqiqat metodlarını təsnifləşdirir.
3. Keyfiyyət əsaslı tədqiqat metodlarını fərqləndirir və onun əsas xüsusiyyətlərini şərh edir.
4. Kəmiyyət əsaslı tədqiqat metodlanm fərqləndirir və onun əsas xüsusiyyətlərini şərh edir.
5. Elmi tədqiqat prosesinin məntiqini, tələblərini və mərhələlərini şərh edir və tətbiq edir.
6. Elmi tədqiqatların aparılmasının etik prinsiplərini başa düşür və tədqiqat fəaliyyətində onlara riayət edir.

**Xarici dil**

1. öyrənilən dildə mükəmməl tərcümə etmə bacarığına yiyələnir.

2. ölkənin siyasi quruluşu və tariixini xarici dildə izah edir.
3. Azərbaycanın iqtisadiyyatını öyrəndiyi dildə şərh edir.
4. ölkəmizin mədəniyyətini xarici dildə nümunələrlə izah edir.
5. Azərbaycan ədəbiyyatı və digərləri haqqında xarici dildə dolğun məlumat çatdıra bilir.
6. Xarici dildə nitqi yüksək səviyyədə başa düşür.

**Mülki müdafiə və ilkin tibbi yardım**

1. Fövqəladə hallarda əhalinin müdafiəsinin və ərazinin mühafizəsinin əsas üsullannı, kollektiv və fərdi mühafizə vasitələrini bilir, onlardan istifadə qaydalarını şərh edir.
2. Fövqəladə hallar zamanı rabitə və xəbərdarlıq sistemlərinin vacibliyini bilir və onlardan istifadə qaydalarını nümayiş etdirir.
3. Fövqəladə hallarda evdə, küçədə, məktəbdə davranış qaydalarını bilir və ona əməl edir.
4. Fövqəladə hallarda tənəffüs üzvlərinin qorunması üçün sadəvasitələrin necə hazırlanması və istifadə qaydalarını bilir və şərh edir.
5. Müxtəlif zədələnmə zamanı ilk tibbi yardımın məqsəd və vəzifələrini, prinsiplərini, göstərilmə qaydalarını bilir və tətbiq edir.
6. Geniş yayılmış xəstəliklərin növlərini, onların yaranma səbəblərini, əlamətlərini, profilaktikasını, yoluxucu xəstəliklərdən qorunma qaydalarını bilir və şərh edir

**Fənlərin və Təhsil Proqramının təlim nəticələrinin matrisi**

Ali təhsil müəssisəsi aşağıdakı cədvəldən istifadə edərək ixtisasın Təhsil Proqramının və hər fənn üzrə təlim nəticələrinin əldə olunmasına necə dəstək verdiyini müəyyən etməlidir.

| | | Proqramın təlim nəticələri | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Blokun adı** | **Fənlərin adı** | PTN1 | PTN2 | PTN3 | PTN4 | PTN5 | PTN6 | PTN7 | PTN8 | PTN9 | PTN10 |
| **Ümumi fənlər** | Azərbaycan tarixi | X | | | | | | | | | |
| | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | | X | | | | | | | | |
| | Xarici dildə işgüzar və akademik kommunikasiya | | X | | | | | | | | |
| **Seçmə fənlər** | | | | | | | | | | | |
| **İxtisas fənləri** | Turizmə giriş | | | X | X | X | X | X | | | |
| | Bələdçiliyin əsaslan | | | X | X | X | X | X | X | X | |
| | Azərbaycan coğrafiyası | X | | X | X | X | | X | | | |
| | Dayanıqlı turizm | | | X | X | X | X | X | X | | |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Turizm hüququ | X | | X | X | X | X | X | X | | |
| | Turizm məhsulunun hazırlanması | | | X | X | X | X | X | X | X | X |
| | Turizm marşrutları və ekskursiya işinin təşkili | | | X | X | X | X | X | | X | X |
| | Turist davranışı və psixologiyası | | | X | X | | | | | X | |
| | Ədəbiyyat və milli mədəni kimlik | X | | | X | X | X | | | | |
| | Etnoqrafiya | X | | X | X | | X | | | | |
| | Təsviri incəsənət | | | | | X | X | | | | |
| | Azərbaycanın şəhərsalma tarixi | | | X | | X | | | | | |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Memarlığa giriş | | | X | | X | | | | | |
| | Bədii ifaçılıq sənətinin tarixi | | | X | X | | X | | | | |
| | Dünya və Azərbaycan muzeyləri | | | X | X | X | X | 5Г | X | | X |
| | Dekorativ tətbiqi sənət | | | X | X | X | X | | X | X | X |
| | Menecmentin əsasları | | | X | X | | | | X | X | |
| | Marketinqin əsaslan | | | X | X | X | X | X | X | X | X |
| | Mühasibat uçotu | | | | | | | | X | | X |
| | Arxeologiya, mədəniyyət və turizm | X | | X | X | X | X | X | X | | |
| | Turizmdə vasitəçilər | | | X | X | | | | X | | X |
| | Sosial tədqiqata giriş | | | | X | X | X | | | | X |
| | Xarici dil | | X | | | | | | | | |
| | Mülki müdafiə və ilkin tibbi yardım | | | | | | | X | | X | |

**TE-B00 Təcrübə**

1.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir. İxtisasın xüsusiyyətlərindən asılı olaraq təcrübənin təşkili qayadaları ali təhsil müəssisəsi tərəfindən müəyyən oluna bilər.

1.2. Təcrübə özəl şirkətdə, dövlət müəssisəsində, tədqiqat laboratoriyasında (eləcə də universitet, AMEA, özəl yerli, yaxud beynəlxalq təşkilat və şirkətlər və s.) təşkil oluna bilər.

1.3. Təcrübə prosesindən maksimal fayda əldə etmək üçün bu proses aşağıdakı kimi 4 mərhələdə təşkil oluna bilər: 1) tələbə karyera planlaşdırılmasın! doğru tərtib etməyi öyrənməli, 2) eləcə də yumşaq və 3) sərt bacarıqlara yiyələnməli, 4) müəssisə və təşkilatlarda təşcrübə keçməli və ya onlardan daxil olan sifariş layihəsini yerinə yetirməlidir.

**Tələbənin karyera planlaması və yumşaq bacarıqlar**

1.4. fənnlərini mənimsəməsi ona təhsil müddətində özünüinkişaf və fürsətlərin dəyərləndirməsinə imkan yaradacaq. Belə ki, “Karyera planlaması” fənni üzrə kursu mənimsəməklə tələbələr karyera barədə ilkin anlayışları, təhsil müddətində dəyərləndirilməli olan karyera inkişaf fəaliyyətlərini biləcək; karyera yol xəritəsinin tərtib olunmasını və texnikaları, iradə, motivasiya və pozitiv- düşüncə, işgüzar etika, iş axtarma strategiyaları, eləcə də iş üçün doğru müraciət qaydalarını, peşəkar CV, rezüme, istək və tövsiyə məktublarının hazırlanmasını bacaracaq; iş müsahibəsinə hazırlıq prosedurlarını və müsahibə texnikalarını anlayacaqdır.

1.5. “Yumşaq bacarıqlar” fənni sayəsində isə tələbə vaxtın effektiv idarə edilməsini, stress menecmentini, kreativ, tənqidi və analitik düşüncə formalarını biləcək; problem həll etmə və qərarvermə texnikaları, ictimaiyyət qarşısında çıxış, səlis nitqin inkişaf yolları, bədən dili və doğru təqdimat qaydalarını, eləcə də komanda işinin qurulmasını bacaracaq; liderlik haqqında prinsipləri anlayacaqdır.

1.6. Sərt bacarıqlar” fənni tələbələrə iş dünyasında ən çox istifadə edilən excel alətlərindən, layihələrin idarə edilməsində proqram təminatlarından səlis istifadəni bacaracaq; iş həyatında şifahi və yazılı kommunikasiya qaydalarını biləcək; rəqəmsal savadlılıq istiqamətindəki əsas nüansları anlayacaq, şəxsi brendin qurulması yollarını biləcəkdir.

Təcrübəni təşkili iki formada təklif olunacaqdır. Belə ki. tələbələr şirkət və qurumlarda təcrübə imkanlarını araşdıracaq və müsbət dəyərləndirilən

tələbələr qarşı tərəfin razılıq sənədlərini universitetə təqdim edəcəkdir. Təhsil müddətində mənimsənilmiş karyera planlaması, sərt və yumşaq bacarıqlar sayəsində iş dünyasında uğur qazanma ehtimalları yüksək olacaqdır. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq şirkət/müəssisə/laboratoriya müqavilə imzalanmalıdır. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun

1.7. digər şirkət/müəssisə/laboratoriyada, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir. Müqavilədə şərtlər, tələbələrin hüquq və öhdəlikləri və digər zəruri təfərrüatlar əks olunur.

1.8. Təcrübənin təşkili barəsində ikinci forma isə tələbələrin iş dünyasından daxil olan sifariş layihələrinin icra olunmasıdır. Belə ki, şirkət və qurumlarda ehtiyac duyulan araşdırmalar, təkmilləşmə imkanları, problemlərə həll yollan tələbə və mentor

müəllimlərin birgə fəaliyyəti ilə təhlil ediləcək və layihə şəklində sifarişçilərə təqdim ediləcəkdir.

1.9. Təcrübənin qiymətləndirilməsi təqdim olunmuş layihənin dəyərləndirilməsindən sonra iş dünyası nümayəndələri tərəfindən həyata keçiriləcəkir.

**TE-B01 Karyera planlaması**

**050809-"Turizm Bələdçiliyi"** ixtisası üzrə Təhsil Proqramının məzunları həm özəl həm dövlət sektorunda layihə menecmenti, insan resursları menecmenti, ictimaiyyətlə əlaqələr, müştəri əlaqələrinin idarəedilməsi, əməliyyatların idarə

1.10. edilməsi, satış kimi sahələrdə layihə meneceri, insan resursları meneceri, əməliyyatlar üzrə menecer, satınalmalar üzrə menecer, ictimaiyyətlə əlaqələr üzrə menecer, müştəri əlaqələri üzrə menecer peşələrində işləyə bilərlər. Eyni zamanda sahibkar, dövlət qulluqçusu kimi də fəaliyyət göstərə bilər.

1.11. Ali təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

1.12. **050809-"Turizm Bələdçiliyi"** ixtisası üzrə Təhsil Proqramının məzunları təhsillərini

"İqtisadiyyat və idarəetmə" ixtisasları qrupuna daxil olan bütün Magistr proqramlarında davam etdirə bilərlər.

Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Karyera planlanması (FTN)**

1. FTN 1 - Özlərinin güclü və zəif tərəflərini başa düşməklə, şəxsi maraqlarını və dəyərlərini tanıyır, həmçinin, öz potensiallarını müəyyənləşdirir və karyera hədəflərini təyin edə bilir.

2. FTN 2 - Müxtəlif karyera yollarını və fəaliyyət sahələrini dərk edir, onların öz maraqlarına və hədəflərinə uyğunluğunu qiymətləndirə bilir.

3. FTN 3 - Tələbələr qarşıya qoyduqları karyera hədəflərini dəqiqləşdirir və onları həyata keçirmək üçün planlar hazırlayırlaya bilirlər.

4. FTN 4 - Burada özlərinə lazım olan bilik və

bacarıqları öyrənir, inkişaf etdirir və onları tətbiq etməyin mexanizmlərinə malik olurlar.

5. FTN 5 - İş axtarışı prosesində effektiv strategiyaları tətbiq etməyi öyrənirlər, CV-lərini hazırlayır və iş müsahibələrinə hazırlaşmaq yollarını bilirlər.

FTN 6 - Karyera planlarını idarə etməyi öyrənirlər, dəyişikliklərə uyğunlaşmaq üçün strategiyalar tətbiq etməyi və inkişaf etdirməyin mexanizmlərini bilirlər

**TE-B02 Yumşaq bacarıqlar**

FTN-1. Geniş çeşidli yumşaq bacarıqların əhəmiyyətini və mahiyyətini, aktuallığını və karyeraya təsirini şərhini edir.

FTN-2. Vaxt - istənilən resursdan qiymətlidir, vaxt töhfədir, işləri necə tamamlamalı, diqqəti necə yönəltməli, düşüncə alətləri ilə enerji tədarükü, detallara diqqət, etibarlılıq,uğur zəncirini və vaxt büdcəsinin mahiyyətini bilir.

FTN-3. Qərar qəbuletmənin əsasları, effektiv şəkildə qəbul edilmiş qərarın faydalarını, arqumenti necə formalaşdırmağı, düzgün seçim etməyi bilirlər.

FTN-4. Münaqişəyə qarşı strategiyalar, stresdən pozitiv məqsədlərə doğru əsas üsulları, özünün və başqalarının hisslərini idarə etməyi bacarır.

FTN-5. Danışıqlar yolu ilə təsir etmək imkanı, ən optimal sazişə nail olmaq üçün taktikalar və təqdimatlar bacarığı, problemlərin kompleks həllini və etibarlı münasibətləri qurmağı bacarır.

FTN-6. Müxtəlif nitq vəziyyətlərində özünəinamlı, təsirli olmağı, tənqidi və analitik düşüncə, təhlil, müzakirə və mülahizələr etmək bacarığını nümayiş etdirir.

FTN-7. Bütün səviyyələrdə – strateji, təşkilati və komanda səviyyələrində çalışan liderlər üçün ruhlandırmağın, təsir göstərməyin, dəyişikliyi idarə etməyin, məqsədlərə çatmağın yollarını müəyyənləşdirə bilir

**Sərt bacarıqlar**

FTN - 1. Rəqəmsal biliklərini fəaliyyət dairəsində tətbiq etməyi bacarmalıdır.

FTN - 2. Təhlil etmə bacarıqlarına, nəzəri biliklərə sahib olmalı.

FTN - 3. Dəyişən bazar tendensiyalarını izləməyi bacarmalı bunun üçün mövcud resursları tanıya bilməlidir.

FTN - 4. Müasir iş dünyasında tələb olunan layihə idarəetməsi və onun çevik idarəetmə formasını bilməlidir.

FTN - 5. Maliyyə savadlılığına sahib olmalı, pul

ehtiyyatlarının düzgün idarə olunması üçün lazım olan alətləri tanımalıdır.

FTN - 6. Şəxsi brend alətini düzgün qura bilməli və

ondan doğru dürüst istifadə etməyi bilməlidir.

FTN - 7. İstər iş həyatında istərsə öz həyatında daim mentor dəstəyini tapa bilməli və daim bunun üzərində təkmilləşdirmə yollarını bilm